**Bakı Xəbər**. - 2022. - 16 sentyabr. - № 167. - S. 4.

# Bakının azad edilmə tarixi böyüdükcə Azərbaycan-Türkiyə qardaşlığı da güclənir...

*“15 sentyabr Bakının daşnak-bolşevik işğalından azad edilməsi tarixi Azərbaycan və Türkiyə birliyinin gerçək ifadəsidir”*

**İradə Sarıyeva**

**15 sentyabr Vətən tarixinə Bakının azadlığı günü kimi yazılıb.104 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bakının azad olunmasından bir əsrdən çox dövr keçib və bu gün Azərbaycan yenə də müstəqil dövlətdir, paytaxtı yenə də doğma Bakıdır.**

104 il bundan əvvəl Bakıda qəhrəmanlıq dastanı yaradan Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu böyük bir xilaskarlıq missiyasını yerinə yetirdi. Heç şübhəsiz ki, Bakının azad edilməsi milli dövlətçilik tariximizə şərəfli səhifələr kimi daxil olmaqla yanaşı həm də Azərbaycan-Türkiyə qardaşlığının simvoluna çevirilib.

***“Bizim birliyimiz tarixi bağlarımızdan güc alaraq günü-gündən daha da möhkəmlənir”***

Tarixçi-tədqiqatçı Hafiz Cabbarov bizimlə söhbətində bildirdi ki, babalarımızdan miras qalan bu ənənə bu gün bizim gerçək birliyimizə, gücümüzə çevirilib. “15 sentyabr Bakının düşmən işğalından azad olunduğu gündür. Hər bir xalqın tarixində ağrılı - acılı, eyni zamanda da şərəfli günlər var. Hesab edirəm ki, milləti millət edən də məhz həm ağrılı - acılı, faciəli, çətin günlərdə, həm də sevincli günlərdə bir yerdə olmaq, bu yaşantıları paylaşmaqdır. Yeri gəlmişkən, bu gün həm də çox çətin və məsuliyyətli günlər yaşayırıq. Torpaqlarımız, ərazi bütövlüyümüz, azadlığımız uğurunda canından keçən şəhidlərimiz Azərbaycanın müstəqillik tarixini, suverenliyini daha da möhkəmləndirirlər. Allah Azərbaycan uğurunda canından keçən bütün şəhidlərə rəhmət eləsin. Allah Azərbaycan Ordusunu daim müzəffər etsin. Sentyabrın 15-i həm də tariximizin ən böyük zəfər günlərindən biridir. Bildiyiniz kimi, 1917-ci ildə Çar Rusiyasının süqutundan sonra Azərbaycanda milli azadlıq hərəkatı yeni mərhələyə qədəm qoydu. Bundan sonra Azərbaycanda müstəqil dövlətçiliyin yaranması uğurunda mübarizə daha mütəşəkkil xarakter almağa başladı. Bu hərəkatın rəhbərləri Azərbaycanın görkəmli ziyalıları idi. Milli dövlətçiliyimizin baniləri olan Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xosrov bəy Sultanov və Azərbaycanın digər demokrat ziyalıları, dövlətçilik məfkurəsinin daşıyıcıları idilər. Məhz onların sayəsində 1918-ci il mayın 28-də Azərbaycan öz istiqlaliyyətini elan etdi. Lakin hələ müstəqillik çox kövrək idi. Çünki Çar Rusiyası uzun zaman məqsədyönlü surətdə azərbaycanlıları orduya cəlb etmədi və bunun nəticəsi də sonradan özünü göstərdi. Bilirsiz ki, dövlətin qurulmasında, möhkəmlənməsində, xalqın qorunmasında ordunun böyük rolu var. Təəssüf ki, 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yarananda ordu yox idi. Azərbaycan Xalq Cumhuriyyətinin ordusu elə məhz döyüş meydanlarında dövlətin yaraması ilə eyni vaxtda yaranmağa başladı. Bu işdə hər zaman olduğu kimi, qardaş türk xalqı, o zamankı Osmanlı hökuməti Azərbaycan Cumhuriyyətinə yardım göstərdi. Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə nümayəndə heyəti Osmanlı dövləti ilə danışıqlar apardı və bu danışıqlar nəticəsində 1918-ci il iyunun 4-də Batumi müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Osmanlı qoşunları Azərbaycana lazım gəlsə hərbi yardım göstərməli idi...

Gördüyünüz kimi, tarix təkrar olunur. Müasir dövrümüzdə də qardaş Türkiyə Azərbaycanla hər zaman həm dildə, həm fikirdə, həm əməldə birlik nümayiş etdirir. Qardaş Türkiyə ilə fikir və əməl birliyimiz tarixi köklərə söykənir. Çünki "bir millət iki dövlət" düsturu tamamilə özünü doğruldur. Bu adi şüar deyil, həyatın həqiqətdi. 15 sentyabr Bakının daşnak-bolşevik işğalından azad edilməsi tarixi Azərbaycan və Türkiyə birliyinin gerçək ifadəçisidir. Bizim birliyimiz tarixi bağlarımızdan güc alaraq günü-gündən daha da möhkəmlənir”.

H.Cabbarovun sözlərinə görə, 1918-ci ildə Cumhuriyyət yaranandan sonra Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün əməli fəaliyyətə başladı. Həmin dövrdə də Azərbaycan torpaqlarının bir hissəsi yenə də işğalçı ermənilər tərəfindən qəsb edildiyini deyən tarixçi qeyd etdi ki, oBu adi şüar deyil, həyatın həqiqətdir. 1918-ci ildə Cumhuriyyət yaranandan sonra Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün əməli fəaliyyətə başladı. Azərbaycan torpaqlarının bir hissəsinin yenə də işğalçı ermənilər tərəfindən qəsb edildiyini deyən tarixçi qeyd etdi ki, erməni daşnakları müxtəlif böyük dövlətlər tərəfindən hərbi yardımlar alırdılar: “Lakin hələ də Azərbaycan ordusu hələ yox idi. Bu zaman döyüş meydanlarında yaranan Azərbaycan hərbi qüvvələri və Qafqaz İslam Ordusu Nuru Paşanın rəhbərliyi ilə Bakının azad

olunması uğurunda mübarizəyə başladı. Bakının işğaldan azad edilməsi Azərbaycan xalqı və Azərbaycan Xalq Cumhuriyyəti üçün taleyüklü məsələ idi. Təsadüfi deyil, o zaman Məhəmməd Əmin Rəsulzadə qeyd edirdi ki, Bakısız Azərbaycan başsız bədəndir. Məhz bu ideya, bu fikir uğrunda Azərbaycan xalqı, yeni yaranan Azərbaycan dövləti Nuru Paşanın başçılığı ilə qardaş Osmanlı hərbi qüvvələri ilə Bakının azad edilməsi uğurunda mübarizəyə başladı. Qüvvələr qeyri-bərabər olsa da, Azərbaycan və Osmanlı ordusunda olan elə bir silah vardı ki, o düşməndə yox idi. Bu mənəvi güc idi, bu azadlığa olan inam idi və bu haqq işi uğurunda mübarizə idi. Məhz haqq işi, azadlıq uğurunda mübarizə nəticəsində Qafqaz İslam Ordusu 1918-ci il sentyabrın 15-də Bakını azad etdi. Məhəmməd Əmin Rəsulzadə qeyd edirdi ki, Bakının azad edilməsi Azərbaycanın müstqəilliyinin elan edilməsi ilə eyni dəyərə malikdir. Doğrudan da bu elədir. Azərbaycanın müstəqilliyi məhz bu hadisə ilə daha da möhkəmləndirildi. Təsadüfi deyil ki, ilk Azərbatcan hökumətinin başçısı görkəmli dövlət xadimi, əsl vətənpərvər Fətəli Xan Xoyski o zaman yazırdı: “Bizim də azad yaşamaq haqqımız var. Heç bir zirehli maşın, hidroplan, heç bir silah, mina, heç bir texniki qurğular, heç bir ingilislər və əlaltıları, ümumiyyətlə heç bir qüvvə tarixin təbii gedişini dayandıra bilmədi”. Bakının kiçik qüvvələrin həmləsi altında süqut etməsi öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlara ibrət dərsi olmalıdır. Lakin təəssüf ki, düşmən ibrət dərsi almadı, yenə də Azərbaycan torpaqlarının işğalına davam etmək istədi. Buna qarşı 1920-ci ilin aprel ayında gənc Azərbaycan ordusu misilsiz qəhrəmanlıq göstərərək Qarabağı düşmən işğalından azad etdi, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Təəssüf ki, o dövrdə tezliklə baş verən Sovet işğalı Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə imkan vermədi. Bildiyiniz kimi, XX yüzilliyin sonunda yenə də düşmən Azərbaycan torpaqlarını işğal etməyə başladı. O zaman da Azərbaycan ordusu döyüş meydanında yaranırdı. Lakin buna baxmayaraq, qüvvələr qeyri-bərabər olsa da, silah, texnika cəhətdən düşmən üstün olsa, Azərbaycan ordusu məğlub olmadı. Baxmayaraq ki, torpaqlarımızın 20 faizi işğal edilmişdi. Ancaq məğlubiyyət o zaman olur ki, xalq məğlub olur, onun qələbəyə inamı sarsılır. Azərbaycan xalqını, Azərbaycan dövlətini məğlub etmək olmadı və çünki Azərbaycan xalqı, Azərbaycan ordusu qələbəyə inanırdı. 2020-ci ildə Azərbaycan ordusu əks-hücuma keçərək öz torpaqlarını azad etdi. Bu gün də Azərbaycan ordusu ölkəmizin ərazi bütövlüyü uğurunda mübarizəni davam etdirir. Fətəli Xan Xoskinin bir daha sözlərinə istinad etmək istəyirəm: “Heç bir silah, heç bir düşmən, heç bir xarici qüvvənin kömək etdiyi əlaltılar Azərbaycanın müstəqillik, ərazi bütövlüyünü təmin etmək iradəsini sındıra bilməz”. Qələbə bizimdir! Allah Azərbaycan Ordusunu müzəffər etsin!!!”